**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№** 081/401

**Bakı şəhəri** "26" dekabr **2024-cü il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2021-2023-cü illər üzrə rəsmi məlumatlarına əsasən, Rusiya Federasiyasının Leninqrad (Leningrad) vilayətində **xırdabuynuzlu heyvanların çiçək,** Pakistan İslam Respublikasının Sind (Sind), Pəncab (Punjab) regionlarında **nodulyar dermatit,** Hindistan Respublikasının Çhattisqarh (Chhattisgarh), Karnataka (Karnataka), Madya Pradeş (Madhya Pradesh), Qücərat (Gujarat), Pəncab (Punjab), Madhya-Pradeş (Madhya Pradesh), Uttar-Pradeş (Uttar Pradesh), Cammu-Kəşmir (Jammu and Kashmir), Haryana (Haryana), Bihar (Bihar) ştatlarında və Haryana (Haryana) ştatının Pançkula (Panchkula), Madhya-Pradeş ştatının Cabua (Jhabua), Maxaraştra ştatının Parbhani (Parbhani) inzibati ərazi vahidlərində, Botsvana Respublikasının Kqatlenq (Kgatleng) dairəsində, Rusiya Federasiyasının Başqırdıstan (Bashkortostan), Tatarıstan (Tatarıstan), Komi (Komi) Respublikalarında, Rumıniyanın Teleorman (Teleorman) inzibati ərazi vahidində isə qeydə alınmış **yüksək patogen quş qripi** xəstəlikləri aradan qaldırılıb.

Belə ki, aradan qaldırılmış xəstəliklər üzrə, ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və xəstəlik baş vermiş ərazilərdə epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəliklərdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə adıçəkilən ölkələrin qeyd olunan inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatı və "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi" nəzərə alınaraq, sözügedən xəstəliklərin baş verməsinə görə Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**1.1. Xırdabuynuzlu heyvanların çiçək xəstəliyi üzrə:**

**1.1.1.** 2021-ci il 14 oktyabr tarixli 059/154 nömrəli qərarla Rusiya Federasiyasının Leninqrad vilayətinə tətbiq edilmiş məhdudiyyət.

**1.2. Nodulyar dermatit xəstəliyi üzrə:**

**1.2.1.** 2022-ci il 14 mart tarixli 019/194 nömrəli qərarla Pakistan İslam Respublikasının Sind və Pəncab regionlarına tətbiq edilmiş məhdudiyyət.

**1.3. Yüksək patogen quş qripi xəstəliyi üzrə:**

**1.3.1.** 2020-ci il 23 yanvar tarixli 23 nömrəli qərarla Hindistan Respublikasının Çhattisqarh ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.3.2.** 2020-ci il 4 iyun tarixli 44 nömrəli qərarla Hindistan Respublikasının Karnataka və Madya Pradeş ştatlarına tətbiq edilmiş məhdudiyyət;

**1.3.3.** 2021-ci il 18 yanvar tarixli 006/101 nömrəli qərarla Hindistan Respublikasının Haryana ştatının Pançkula, Madhya-Pradeş ştatının Cabua və Maxaraştra ştatının Parbhani inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyət;

**1.3.4.** 2021-ci il 4 fevral tarixli 010/105 nömrəli qərarla Hindistan Respublikasının Qücərat ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.3.5.** 2021-ci il 7 sentyabr tarixli 049/144 nömrəli qərarla Botsvana Respublikasının Kqatlenq dairəsinə tətbiq edilmiş məhdudiyyət;

**1.3.6.** 2021-ci il 15 sentyabr tarixli 053/148 nömrəli qərarla Hindistan Respublikasının Pəncab, Madhya-Pradeş və Uttar-Pradeş ştatlarına tətbiq edilmiş məhdudiyyət;

**1.3.7.** 2021-ci il 24 sentyabr tarixli 057/152 nömrəli qərarla Hindistan Respublikasının Cammu-Kəşmir və Haryana ştatlarına tətbiq edilmiş məhdudiyyət;

**1.3.8.** 2022-ci il 17 fevral tarixli 013/188 nömrəli qərarla Hindistan Respublikasının Bihar ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.3.9.** 2023-cü il 17 avqust tarixli 036/287 nömrəli qərarla Rusiya Federasiyasının Başqırdıstan Respublikasına tətbiq edilmiş məhdudiyyət;

**1.3.10.** 2023-cü il 1 sentyabr tarixli 038/289 nömrəli qərarla Rusiya Federasiyasının Tatarıstan Respublikasına tətbiq edilmiş məhdudiyyət;

**1.3.11.** 2023-cü il 23 oktyabr tarixli 046/297 nömrəli qərarla Rusiya Federasiyasının Komi Respublikasına tətbiq edilmiş məhdudiyyət;

**1.3.12.** 2023-cü il 30 oktyabr tarixli 049/300 nömrəli qərarla Rumıniyanın Teleorman inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentlik Aparatının struktur bölmələrinə, eləcə də regional bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

**5.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

Baş Dövlət Baytarlıq Müfəttişi
Chief Veterinary Officer